*UOT 371*

**Akif Nurağa oğlu Abbasov**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi,*
*pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim*
*Orcid https://orcid.org/0000-0002-9210-7141*
https://doi.org/10.69682/azrt.2024.91(1).12-17

## MƏHƏMMƏD FÜZULİNİN ƏXLAQİ GÖRÜŞLƏRİ

**Акиф Нурага оглы Аббасов**
*ученый секретарь Института Образования Азербайджанской Республики,*
*доктор педагогических наук, профессор, заслуженный учитель*

## НРАВСТВЕННЫЕ ВЗГЛЯДЫ МУХАММЕДА ФИЗУЛИ

**Akif Nuragha Abbasov**
*scientific secretary of the Institute of Education of the Republic of Azerbaijan,*
*doctor of sciences in pedagogy, professor, Honored teacher*

## MORAL VIEWS OF MUHAMMAD FIZULI

**Xülasə**. Məhəmməd Füzuli insan problemini bəşəri problem hesab etmiş və şəxsiyyətin kamilləşməsini, saflaşmasını, şərəf və ləyaqəti qayğısına qalmasını vacib sanmışdı. Odur ki, dahi şair insanın təşəkkül tapıb formalaşmasında tərbiyənin və özünütərbiyənin rolunu yüksək qiymətləndirirdi. Füzuliyə görə, tərbiyə ümidsizlərin ümid çırağı, məzlumların nicat yolunun göstəricisidir.

Məqalədə Füzulinin əxlaqi görüşləri araşdırılır.

***Açar sözlər**: insan amili, əxlaq, əxlaqi görüşlər, şəxsiyyətin tərbiyəsi, şəxsiyyətin formalaşması*

**Резюме**. Мухаммед Физули считал проблему человека проблемой человечества и для него важным было совершенствовать и очищать личность, беречь честь и достоинство. Поэтому гениальный поэт высоко ценил роль воспитания и самовоспитания в развитии и становлении человека. По мнению Физули, воспитание является маяком надежды для отчаявшихся и знаком спасения для угнетенных.

В статье рассматриваются нравственные взгляды Физули.

***Ключевые слова**: человеческий фактор, нравственность, нравственные взгляды, воспитание личности, формирование личности*

**Summary**. Muhammad Fizuli considered the problem of man to be the problem of humanity and considered it important to improve and purify the personality, to preserve honor and dignity. Therefore, the brilliant poet highly valued the role of upbringing and self-education in the development and formation of a person. According to Fuzuli, education is a beacon of hope for the hopeless and a sign of salvation for the oppressed.

The article discusses the moral views of Fuzuli.

***Key words**: human factor, morality, moral views, personality education, personality formation*

Məhəmməd Füzuli türkdilli ədəbiyyatın çox qüdrətli şairlərindən biridir. O, eyni zamanda istər Azərbaycan, istərsə də Osmanlı ədəbiyyatının son dərəcə böyük sənətkarlarından sayılır.

Füzuli 1494-cü ildə hazırkı İraqda dünyaya gəlmiş, 1556-cı ildə Kərbəlada vəfat etmiş və həmin şəhərdə də dəfn olunmuşdur. Şair uşaqlıq dövründə mükəmməl təhsillə əhatə olunmuş, riyaziyyat, ədəbiyyat, astronomiya elmlərinə və bir sıra dillərə, o cümlədən ərəb və fars dillərinə yiyələnmişdir.

Azərbaycan, Şərq və dünya poeziyasının nadir incilərindən sayılan “Leyli və Məcnun» poeması müəllifinə ölməz şöhrət gətirmişdir. Bundan savayı, M. Füzuli “Bəngu-Badə” (“Tiryək və şərab”), “Yeddi cam”, “Ənis ül-qəlb”, “Səhhət və mərəz”, “Rindü-Zahid” (“Sufi və

Zahid") əsərlərini, çox saylı qəzəl, müqəddəs, rübai, mürəbbe, tərcibənd, tərkibənd müəllifidir.

Dahi şairin yaradıcılığı Mərkəzi Asiyaya və Hindistana kimi yayılan fars-türk mədəniyyət mühitində özünə möhkəm yer almışdır. M. Füzuli öz əsərlərini Azərbaycan, fars və ərəb dillərində qələmə almışdır. Onun yaşadığı dövr üç imperiyanın (Ağqoyunlu, Səfəvi və Osmanlı) hökm sürdüyü zamanlara təsadüf etdiyindən həmin dövlətləri vəsf edən şeirlər yazmışdır. Füzuli ilk qələm təcrübəsi Ağqoyunlu hökmdarı Əlvənd Mirzəyə ithaf etmişdir.

Bir sıra mənbələrdə Məhəmməd Füzulini Osmanlı şairi adlandırırlar. Buna səbəb onun bir çox əsərlərinin Osmanlı dövlətinin hakimiyyəti illərində yazılması idi. Osmanlı sultanı I Süleyman Qanuni 1534-cü ildə Bağdadı fəth etdiyi zaman Füzuli onun şərəfinə bir qəsidə yazmışdır. Bəzi qəsidələrini isə Osmanlı məmurlarına həsr etmişdi. Onun Osmanlı sultanı II Bəyazidə və bəzi Osmanlı məmurlarına ithaf etdiyi məktublar da vardır.

Məhəmməd Füzuli Azərbaycan şairi idi və Azərbaycan şairi olaraq qalmaqdadır. Onun Azərbaycan dilində olan ilk şeiri "Bəndü Badə"dir ("Tiryək və Badə"). Bu əsəri o, I Şah İsmayıla həsr edib.

Məhəmməd Füzuli insan problemini bəşəri problem hesab etmiş və şəxsiyyətin kamilləşməsini, saflaşmasını, şərəf və ləyaqəti qayğısına qalmasını vacib sanmışdı. Odur ki, dahi şair insanın təşəkkül tapıb formalaşmasında tərbiyənin və özünütərbiyənin rolunu yüksək qiymətləndirirdi. Füzuliyə görə, tərbiyə ümidsizlərin ümid çırağı, məzlumların nicat yolunun göstəricisidir. O, tərbiyənin zəngin imkanlarından danışarkən deyirdi:

*Feyz lütfilən əgər insana qılsa tərbiyət,*
*Qədrlə insan-mələk nisbət əzim üşşan olur.*
*Var mələk həm tapsa eyni ultifatından nəzər,*
*Əqil kamil kəsb edər, əlbəttə, bir insan olur.*

İnsanlar zaman-zaman Məhəmməd Füzulinin əsərləri ilə tanış olaraq, xeyir və şərin, yaxşılıq və pisliyin, haqqın və nahaqqın, ədalət və ədalətsizliyin nə demək olduğunu, pisliklərin, mərdimazarlığın, şər və böhtanın hansı bəlalar gətirdiyini anlamış, düşünmüş, nəticə çıxarmışlar.

Dahi şairin nöqteyi-nəzərincə, bütün dərdlərə, çətinliklərə, o cümlədən kasıbçılığa, xəstəliyə, əzab və işgəncəyə də tablaşmaq mümkündür. Onların hər birinin əlacı gec-tez tapılır (yalnız ölüm qaçılmazdır). Fəqət dözülməsi mümkün olmayan bir dərd var ki, ona dözmək olmur. Bu, dərdi anlamayanlar arasında mövcud olmaqdır. Füzuli insan-cəmiyyət münasibətlərinə diqqətini yönəldir və belə qənaətə gəlirdi ki, cəmiyyətdə azad, firavan yaşamağa, maddi-mənəvi təminat tələb etməyə hər bir şəxsin haqqı var.

Məhəmməd Füzuli cəmiyyətdə hökm sürən haqsızlığa, ədalətsizliyə, hüquqsuzluğa, zorakılığa qarşı etiraz səsini ucaldırdı. "Salam verdim, rüşvət deyildi – almadılar!" Bu dahi şairin rüşvətxorluğa, tamahkarlığa, pula, mal-dövlətə hərisliyinə qarşı üsyanıdır.

Professor Əhməd Seyidov yazırdı: "Füzulinin fikrincə, tərbiyəçi insan qəlbini dərindən hiss etməli, onun qəlbinin gizli sirlərini duymalı, bütün elmlərdən və sənətlərdən xəbərdar olmalıdır ki, onun dükanına gələn müştərilər orada hər şeyi tapsınlar, yəni onun təlim-tərbiyəsinə möhtac olsunlar, ona müəyyən suallarla müraciət edənlər ondan qənaətbəxş cavablar alsınlar (2, s. 139). ... Təbiət aləmində arası kəsilməyən yağışların köməyi ilə biyabanlar, çöllər bağbostana çevrilir, ruzigarın uzun müddətli təsirləri nəticəsində daş rəngini dəyişdirib ləl olur, su qiymətli incilərə çevrilə bilər, zərrələrin günəşlə birləşməsi ona parlaqlıq verir, arası kəsilməyən damcılardan dərya əmələ gəlir. Füzuli buradan nəticə çıxararaq göstərir ki, insan da insana düzgün münasibət göstərsə, onu lütf ilə nəvaziş ilə tərbiyə etsə, ondan yüksək mənada insan olar" (2, s. 140).

Məhəmməd Füzuli qızların tərbiyəsini xüsusilə diqqət mərkəzində saxlamağı vacib sayırdı. Bu, əsassız deyildi. Qızın tələsik qərara gəlməsi, artıq hərəkəti, açıq-saçıqlığı, diqqətsizliyi, yüngülxasiyyət olması həm onun adını ləkələyir, həm də ailəsini şərəfsiz edir, ata-anasına, bacı-qardaşına tənə gətirir. Anasının Leyliyə nəsihətini yadımıza salaq:

*Faş oldu bu macəra cəhanə*
*Kim: "Qeys oluban əsiri-Leyli,*
*Leyli dəxi salmış ona meyli".*
*Leylinin anası oldu agah,*
*Odlara tutuşdu, yasə batdı,*
*Ol gülrüxə dedi yanə-yanə:*
*"K'eyl şux! Nədir bu göftügulər,*

*Qümaq sənə tə'nə eybculər?*
*Nəyçün özünə ziyan edirsən?*
*Yaxşı adını yaman edirsən?*
*Nəyçün sənə tə'nə edə bədgu?*
*Namusuna layiq işmidir bu?*
*Təmkini cününə qılma təbdil!*
*Qızsan, ucuz olma, qədrini bil!*
*Mey gərçi səfa verir dimağə, (3, s. 55).*

*Axdığı üçün düşər əyağə.*
*Aşiqlik işi qıza nə layiq?*
*Ey iki gözüm, yaman olur ar!*
*Namusumuzu itirmə, zinhar!.. (3, s. 56)*

Füzuli insanlara öz oturuşlarına və duruşlarına, hərəkətlərinə, danışıqlarına fikir verməyi, hər sözün qədr-qiymətini bilməyi məsləhət görürdü. Onun qənaətincə, insan çox zaman dilindən bəlaya düşür. Ona görə də hər bir şəxs dilinə yiyəlik etməyi bacarmalıdır ("Əgər istəyirsən məhv olmayasan, Dilini saxla sən, sus").

Dahi şair zəhmətə bağlanmağı, əməksevər olmağı məsləhət bilir, bekarçılıqdan, tənbəllikdən, ələbaxımlıqdan, boş-boş veyillənməkdən əl çəkməyi tövsiyə edirdi. Rübailərinin birində bu xüsusda deyirdi:

*Fürsət var ikən, sən işsiz qalma,*
*Boş yerə ömrünü gəl etmə tələf.*

Şair dünya malına tapınanları, acgözləri, tamahkarları pisləyir və bəyan edirdi ki, bu xislətli adamlar nə qədər varlı-karlı, imkanlı olsalar da, onların gözləri heç zaman doymur:

*Gözü doymaz hərisin dəhrdə, çünki həris insan,*
*Olarsa şahi-İran, tutmaq istər mülki-Turani.*

Füzuli imkanlı şəxsləri imkansızlara kömək göstərməyə çağırırdı:

*Malın varsa, onu sərf et, əgər sən kamil insansan,*
*Çatarsan bil kamalə sərvətin tapdıqda nöqsani.*

Füzuli eyni zamanda çətinliyə düşən, maddi durumu aşağı olan, başqası tərəfindən təzyiqə məruz qalan şəxslərin inləməsini, özlərini itirmələrini, kiminsə qarşısında alçalmalarını, yalvarmalarını nöqsan sayırdı. Bu məsələyə toxunarkən yazırdı:

*Fəqir olsan da, şad ol, şam kimi gül, odda yansan da,*
*Ki odla canlanan şəmin alovudur abi-heyvani...*

Göründüyü kimi, dahi şair həyatda nikbin olmağı, heç zaman, heç kimin yanında, hansı şəraitdə belə olursa-olsun, özünü sındırmamağı məsləhət bilirdi.

Məhəmməd Füzuli "Rindü-Zahid" əsərinin də müəllifidir. Bu poemanı o, fars dilində yazmışdır. Əsər Füzulinin əxlaqi görüşləri, təhsillə, tərbiyə və təlimlə, peşə seçimi ilə bağlı fikirləri barədə dolğun təsəvvür yaradır. Poema zəngin təhsilləndirici, tərbiyələndirici imkanlara malikdir. Əsər mükalimə üslubunda qələmə alınmışdır. Şair bitkin, kamil bir pedaqoji mənzərə yaratmağa nail olmuşdur.

Şair poemanı cəlbedici, maraqdoğuracaq bir yazılış tərzi ilə təqdim edir. Belə ki, əsərdəki hər bir mükalimənin nəticəsi kiçikhəcmli şeirlə başa çatır.

Əsərin qəhrəmanlarından biri olan Rind təhsilə laqeyd yanaşır. Onun atası Zahid bundan narahat olaraq oğluna təhsilin insan həyatındakı və fəaliyyətindəki böyük rolunu başa salmağa çalışır.

Əvvəla, Zahid haqqında. O, cəmiyyətdə böyük nüfuz sahibidir, saf əxlaqı, təmiz vicdanlı, dindar, varlı-karlı bir şəxsdir. Diqqət yetirək:

*"Dünyanın kəşməkəşindən asudə bir fəqih idi;*
*Ona təzim etmək üçün mehrabların qəddi*
*ikiqat olmuşdu,*
*Tacdarlar onun ayağının torpağına möhtac idilər,*
*Onun başmaqları fələyin başına tac idi.*

O, özündən xəbərsiz müridlər məclisinin yuxarı başda əyləşəni, həqqə yaxınlaşmaq və onun tərəfindən qəbul olunmaq istəyənlərin qabaqda gedəni idi. Hər aləmdə bir ələm qaldırmışdı, hər elmdən bir bəhrəsi var idi" (4, s. ).

Rind isə, belə təsvir olunur: "kamalda mislibərabəri yox idi. Hələ onun üzünə tük gəlməmişdi, lakin öz idrak qüvvəsilə yaradılış xəttinin məzmununu dərk etmək dərəcəsinə çatmışdı.

*Fəzl və kamal bağının rəna bir gülü idi,*
*Cah-cəlal mədəninin gözəl bir gövhəri idi.*
*Gözəl xasiyyətlərinin və lətif əxlaqının aynası*
*Onun işıqlı idrakının seyqəlindən nur almışdı" (4).*

Zahid oğluna nəsihət verərək gələcək xoşbəxt həyatın yollarını göstərirdi. Diqqət yetirək:

"Ey əziz və xoşbəxt oğlum! Bil ki, Allahın hikmətinin tələbi və xaliqin qüdrət iradəsi insanların vücudunu müxtəlif təbiətdə xəlq eləyib, onların varlıq cəridəsində müxtəlif təbiətlərin rəsmini çəkmişdir. ... Belə qərar qoyubdur ki, hər kəs öz səyi sayəsində ona müqəddər olan rütbəyə çatmaq üçün cidd-cəhd eləsin. Hər kəs öz səyinin nəticəsində ona qismət olan ruzi şərbətini içsin, ta tənbəllik törədən və beləliklə, aləmin nizamına qarışıqlıq gətirən qəzaya etimad etməsin, habelə kəsalət törədən və bəni-adəmin ixtilatını pozan qədərə etiqad etməsin" (4).

Məhəmməd Füzulinin əxlaqi görüşlərində düzlük və doğruçuluğa aid fikirləri önəmli yer tutur. O, insanları dillərinə düz söz gətirməyə, doğruçul olmağa səsləyir, yalançılığı özlərinə yaxın buraxmamağı, xeyirxah, xoşməramlı işləri, əməlləri ilə dünyanı zinətləndirməyi məqsədəuyğun sayırdı ("Düzlükdür hər şeyin ilk məziyyəti").

Şair yalan deməklə öz işlərini aşıranları lənətləyirdi. Fikir verək:

*Yalan söz söyləyənlərin gərək*
*Ağıl yanında heç bir etibarı olmasın,*
*Nə üçün gərək insan yalan danışsın,*
*Və yalanı etibarının səbəbi bilsin!*

"Rindü-Zahid" əsərində diqqət yetirilən məsələlərdən biri əməksevərlik, zəhmətəbağlılıq, sənətseçimi (peşəyönümü) məsələləridir.

Rind ağıllı, müstəqil fikirli, öz yaşına görə geniş dünyagörüşlü bir gəncdir. Atası onun bu müsbət cəhətlərini görür, onun bir sənətə, peşəyə yiyələnməsi vaxtının yetişdiyini başa düşür. Oğlu ilə bu məsələ haqqında söhbətə başlayır.

Zahid bu xüsusda oğluna deyir: "Uca himmətli ol ki, bundan da yaxşı bir sənət öyrənəsən ki, həm həyatda etibarına səbəb olsun, həm də öləndən sonra onun asarı səndən yadigar qalsın. Onu bil ki, bu gün hər nəyə rəğbət eləsən bacararsan. Sabah hər nəyi yadına salsan həsrət çəkərsən" (4).

Rind ağıllı və o dövr üçün müasir gəncdir. Münasib peşə seçməyə üstünlük verir, bəzi məqamlarda atası ilə razılaşmadığını bildirir. Atasının təklif etdiyi peşələri xoşlamır. Zahid təhsil alıb padşah sarayında çalışmağı, var-dövlətə yiyələnməyi, hörmət və nüfuz qazanmağı, yaxud şəhər həyatı ilə bağlı olan peşələrdən birini seçməyi və ya əkinçilik kimyası ilə ülfət bağlamağı, eyni zamanda ya da ticarətçi olmağı lazım bilir.

Rind onların mənfi cəhətlərini sadalayır, ki, padşah sarayında papağını günə yandırmaq bir tərəfdən bu xalqı soyub-talamaq, digər tərəfdən, var-dövlət qazanmaq olsa da, ömrü boyu səksəkədə və qorxuda yaşamaq deməkdir.

Ticarətçi də xalqın dərisini soyub varlanır. Bunu insanlığa layiq iş hesab etmək olmaz.

Əkinçinin işi isə halal zəhmət, xeyirxahlıq olsa da, çətindir. Məhsulu əkib gözləyirlər görsünlər axırı necə olacaq. Çox əlləşib-vuruşurlar. Bəxtləri təbiətdən çox asılıdır. Bir də görürsən ki, təbiət bir bəla göndərir, zəhmətləri hədərə gedir.

Şəhər sənətkarlığı da çox da uğurlu peşə deyil. Bu sənəti seçənlər qazanc üçün gün ərzində çalışır, gecələr dincəlib səhərlər bir daha həmin işlə məşğul olurlar. Həyat onlar üçün mənasız və darıxdırıcıdır.

Rind ağıllı mühakimələri ilə atasını inandırır.

Deyilənlərdən belə qənaətə gəlmək mümkündür ki, Rindin dediklərində iki başlıca məsələ diqqət mərkəzinə gətirilir: 1. Peşə seçimi fonunda cəmiyyətin eybəcərlikləri qeyd olunur. 2. Bu və ya digər peşə, yaxud sənət gənclərin maraq, meyl və istəklərinə uyğun olmalıdır.

"Rindü-Zahid" poemasında diqqət yetirilən dəyərli məsələlərdən biri də müəllim və valideyn münasibətləri, pedaqoji prosesə ətraf mühitin təsiridir. Füzuli şəxsiyyətin təşəkkül tapıb formalaşmasında müəllimin roluna çox böyük qiymət verirdi. Diqqət yetirək: "Bil ki, insan varlığının kamalı iki vücuddan asılıdır. Əvvəl zahiri vücuddur ki, onun da mənbəyi atadır. İkinci mənəvi vücuddur ki, onun da mənşəyi rəy sahibi olan mürşidin hidayətidir".

Əsərdə valideynin rolu da çox yüksək qiymətləndirilir. Şair belə qənaətə gəlir ki, ata-ananın vəzifəsi heç də təkcə övladını yedirib-içirməkdən, geyindirib-keçindirməkdən, onu müəyyən peşəyə yiyələndirməkdən, onu tərbiyələndirməkdən ibarət deyildir.

Valideyn uşağa həyatın fərəhli yollarını, xoşbəxtliyin sirlərini öyrətməli, ona nümunə olmalıdır.

"Rindü-Zahid" poemasında önəmli cəhətlərdən biri bundan ibarətdir ki, M. Füzuli öz zəmanəsinin yaramazlıqlarını, dövlət məmurlarının öz vəzifələrindən sui-istifadə etməklə hədsiz

var-dövlət əldə etmələrini, sadə insanların məşəqqətli həyatını ifşa edir.

M. Füzulinin "Fəzliyə nəsihət" poeması da güclü tərbiyəedici və təhsilləndirici rola malikdir. Şair haqqında danışılan əsərdə oğlu Fəzlinin simasında o dövrün gənclərinə üzünü tutaraq, son dərəcə qiymətli fikir söyləmişdir. Şair Fəzliyə müraciətlə yazırdı:

*Əvvəlcə düşdü bir bağa nagah yolum mənim,*
*...Gördüm o cümlədən qoca bağban bəhər üçün,*
*Ümidlə, qayğı ilə əkib bir cavan fidan.*
*Səy eyləmiş o vaxta qədər ki, budaq verib,*
*Yarpaq açıb, şükufə yetirmiş ağac haman.*
*Meyvə ki, əsl məqsəd idi, zahir olcağın,*
*Əvvəl şükufədən o qida aldı bir zaman.*
*Ayrıldı bir qədər böyüyüncə şükufədən,*
*Yarpaqla şaxədən o qidalandı durmadan.*
*Əzasına ağacdan onun su rəvan idi,*
*Tamsız, yetişməmiş, böyüyüb boy atan zaman.*
*Həddi-kamala çatmadan o meyvə daima*
*Üstündə idi ol ağacın şad, kamiran.*
*Dəydi, ağacla bir-birinin ziddi oldular.*
*Rəng ilə ətri verdi bi ziddiyyəti nişan.*
*Ayrılmalıydı meyvə ağacdan dəyən kimi,*
*Verməz təbiət heç kəsə bu hökmlə aman.*
*Meyvə dərilməz isə ağacdan, bu qaydadır,*
*Dövran əlilə hər ikisinə yetər ziyan.*
*Yoxdursa meyvədə ağaca ehtiyac əgər,*
*Meyvə ağacda tutmamalı boş yerə məkan*
*Dinlə məni, ağıllı balam, diqqət ilə sən,*
*Bu incə nüktə sirrini ta eyləyim bəyan.*
*Salsan həqiqət aləmində yaxşı bir nəzər,*
*Sən meyvəsən, mən isə ağac, dəhr busitan.*
*Dünya bağında hər ağacı bəsləmək üçün*
*Qəddi bükük fələk özüdür piri-bağiban (5).*

Şərh edək: Ata bağda qoca bir bağban gördür. Məhsul bol olsun deyə çalışırdı. Nəhayət, ağac qol-budaq atdı, çiçəkləndi. Bir müddət keçmiş meyvələr göründü. Birinci dəfə təzə-təzə meydana gələn meyvəni çiçək qıdalandırırdı. Meyvə hələ yetişməmişdi. Az sonra meyvə böyüyüb çiçəkdən ayrıldı. Artıq o, yarpaqlardan qida almağa başladı. Hələ kal və dadsız idi. Qidasını ağacdan almaqda idi. Yavaş-yavaş meyvə yetişdi. İndi onu dərmək lazım gəlirdi. Ağacda qalma vaxtı var axı. Gec dərilərsə, get-gedə xarab olar, çürüyər. ...Ey oğul, indi sən mənim bu sözlərimdən mətləbi anla. Həqiqət aləminə nəzər yetirsən, meyvə sənsən, ağac mən. Ağacı bəcərən isə belli bükülmüş bağbandır. Yarpaq və çiçək – mülk, mal, arvaddır. Nə zaman ki, sən heçlikdən dünyaya gəldin (doğuldun), ana pərəstişkarın oldu. Süddən ayrılandan sonra mənim mülk-malımdan faydalanıb yaşadın. Nə qədər ki, hələ möhkəmlənməmişdin, məndən qeyri havadarın və mehribanın yox idi. Səni böyüdüb, boya-başa çatdırdım. İndi böyümüsən, məndə artıq sənin bəlalarını çəkmək iqtidarı qalmayıb. Mən qocalmışam, sən cavansan. Məndən ağac-meyvə sözünü qəbul et.

Nə qədər ki, hələ möhkəmlənməmişdin, məndən qeyri havadarın və mehribanın yox idi. Səni böyüdüb, boya-başa çatdırdım. İndi böyümüsən, məndə artıq sənin bəlalarını çəkmək iqtidarı qalmayıb. Mən qocalmışam, sən cavansan. Məndən ağac-meyvə sözünü qəbul et. Mən yavaş gedən qoca, sən tez gedən cavansan.

... Şahin balası özündə uçmaq qüdrət tapanda yuvasından uçar. Təbiətin hökmüdür – mirvari kamil olduqda məkanından bayıra çıxır. Təbiət üçün əhəmiyyət daşıyan bu qanun insandan ötrü öz hökmünü saxlayır. Əmək fəaliyyəti, ictimai həyatı onun üçün daha ciddi hazırlıq tələb edir. Bu əhəmiyyətli vəzifəni tərbiyə həll etməlidir.

Məhəmməd Füzulinin əsərləri ilə tanışlıqdan görünür ki, o, tərbiyənin məqsədinə də münasibət bildirmişdir. Diqqət yetirək: tərbiyənin məqsədi – elmli, ürfan, pak, əxlaqlı, zəngin mənəvi həyata malik, insan həyatını dərindən hiss edən, şəxsi mənafeyini xalqın mənafeyi ilə, sözünü, fikrini işlə bağlamağı bacaran, ağlı, zəkası ilə insanları nurlandıran, sözündə, əhdində vəfalı, sədaqətli və səmimi bir insan yetişdirməkdir.

Əsrlər keçib, lakin Füzuli irsi yenə öz təravətini saxlayır, insanları xeyirxah, nikbin, alicənab, mərd, cəsur, doğrucul, ədalətli, bir-birinə münasibətdə səmimi və mehriban olmağa səsləyir.

**Problemin aktuallığı.** Məhəmməd Füzulinin anadan olmasının 530 ili tamam olur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev böyük şairin yubileyinin təntənə ilə qeyd edilməsi ilə bağlı sərəncam imzalayıb. Həmin sərəncamdan irəli gələn vəzifələri nəzərə alaraq hazırlanmış bu məqalə aktuallığı ilə seçilir.

**Problemin yeniliyi.** Məhəmməd Füzulinin əxlaqi görüşləri diqqət mərkəzinə gətirilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat**

1. Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 25 yanvar 2024-cü il
2. Seyidov, Ə.Y. Pedaqogika tarixi: Ali təhsil müəssisələri üçün dərslik / Ə.Y. Seyidov. – Bakı: Maarif, – 1968. – 418 s.
3. M. Füzuli. Əsərləri. 6 clddə, 2-ci cild. Şərq-Qərb, – 2005, – 336 s.
4. Ründi Zahid. bax. M. Füzuli. Əsərləri. 6 cilddə, 5-ci cild. Şərq-Qərb, – 2005, – 224 s.
5. “Heyrət, ey büt…”. M. Füzuli. Seçilmiş əsərləri. Bakı: Araz, – 2013, – 216 s.

**Rəyçilər**: *ped.elm.dok., prof.* **H.H. Əhmədov,**
*ped.elm.dok., prof.* **H.Ə. Əlizadə**
**E-mail: a**.abbasov@arti.edu.az
**Redaksiyaya daxil olub**: 09.01.2024